COP29 Baku Azerbaijan

## Yaşıl dünya naminə həmrəy olaq!



# “Yaşıl texnologiya” və təmiz enerji üzrə qlobal mərkəz

**Bakı Xəzərin sahilində parlayan əbədi məşəl kimi qədim bir yurdun müasir dünyaya uzanan əlləri arasındadır. Burada hər küləkdə və hər daşda keçmişin səsi duyulur. Şərqin incisi olaraq tanınan, İpək Yolunun qovşağında yerləşən bu şəhər, artıq müasir dövrdə öz yeni hekayəsini yazır. Azərbaycanın zəngin tarixi, mədəniyyəti və milli irsi Bakını canlı tarix muzeyinə çevirmişdir. Lakin Bakı bu gün təkcə Azərbaycanın paytaxtı deyil, həm də beynəlxalq arenada özünü təsdiqləyən və qlobal məsələlərin həllində fəal iştirak edən bir şəhərdir.**

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

**COP29**

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası**

COP29 kimi qlobal iqlim tədbirlərinə ev sahibliyi edərək Bakı həm Azərbaycanın beynəlxalq miqyasda rolunu möhkəmləndirir, həm də ekoloji davamlılıq və təmiz enerji sahəsində dünya üçün əhəmiyyətli bir platforma yaratmağa nail olur. Bakının tarixi minilliklərə söykənir. Bu şəhər qədim İpək Yolunun üzərində yerləşərək Şərqlə Qərbi birləşdirən əsas ticarət yollarından biri olmuşdur. İçərişəhər UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilmiş, burada yerləşən Qız qalası və Şirvanşahlar sarayı kimi abidələr isə şəhərin zəngin keçmişini əks etdirən tarixi şah əsərlərdir. Hər daşında keçmişin izlərini daşıyan bu məkan Azərbaycanın mədəniyyət tarixinin dərinliyini və bu torpaqlarda yaşamış sivilizasiyaların irsini qoruyur.

Paytaxtımız tarixən müxtəlif mədəniyyətlərin kəsişdiyi bir mərkəz olmuşdur. Bu qədim şəhər fərqli dinlərin, dillərin və adətlərin bir-birinə qarışdığı bir məkandır. Tarixi binalar, karvansaralar, məscidlər və məbədlər Odlar Yurdunda müxtəlifliyi və zənginliyi göz önünə gətirir. Bu tarix şəhərin ruhunu formalaşdıraraq Bakının həm Azərbaycan, həm də dünya üçün əvəzolunmaz bir miras olduğunu nümayiş etdirir. Şəhərimiz həmçinin qədimdən günümüzə Azərbaycan xalqının mədəniyyətinin, incəsənətinin, musiqisinin və poeziyasının daşıyıcısı olaraq dünya mədəniyyət xəzinəsinə böyük töhfə vermişdir.

XX əsrin sonlarından etibarən Bakı yenidən dirçəlmiş, bu gün isə dünyanın inkişaf etmiş şəhərlərindən birinə çevrilmişdir. Heydər Əliyev Mərkəzi kimi möhtəşəm memarlıq nümunələri paytaxtımızın müasir dünyada tanınan bir şəhər olmasına və ölkənin modernləşmə prosesinə dəlalət edir. Bu mərkəz Azərbaycanın yeniliklərə açıq olduğunu, modern dünyanın tələblərinə uyğun addımlar atdığını sübut edir və dünya səhnəsində ölkəmizin mövqeyini daha da möhkəmləndirir. "Alov qüllələri" Bakının qlobal arenada enerji mərkəzi olaraq tanınmasını simvolizə edir. Odlar Yurdu bir vaxtlar "neft ölkəsi" kimi tanınsa da, bu gün öz iqtisadiyyatını təkcə neft-qaz deyil, həm də turizm, mədəniyyət və incəsənət sahələrində də inkişaf etdirir. Şəhərdə hər il keçirilən Formula 1 yarışları kimi mötəbər tədbirlər Bakını beynəlxalq arenada tanınan bir mərkəzə çevirir. Bu tədbirlər paytaxtımızın dünya ilə bağlarını gücləndirir və Azərbaycanı beynəlxalq səhnədə etibarlı bir tərəfdaş kimi möhkəmləndirir. Bakının qlobal nüfuzu mədəniyyət və iqtisadiyyat sahələri ilə məhdudlaşmır: şəhər, həmçinin ekoloji və iqlim dəyişmələri sahəsindəki təşəbbüsləri ilə beynəlxalq arenada tanınır. Azərbaycanın paytaxtı Bakı yaxın günlərdə COP29 konfransına ev sahibliyi edərək ölkənin qlobal iqlim dəyişmələri problemlərinə olan yanaşmasını və ekoloji məsuliyyətini ortaya qoyacaq.

Bu möhtəşəm zirvə Bakının təkcə ölkə daxilində deyil, həm də beynəlxalq səviyyədə ətraf mühitin qorunması və ekoloji dayanıqlılıq mövzularında böyük rol oynaya biləcəyini sübut edəcək. COP29 dünyanın hər yerindən gələn nümayəndələri Bakıda bir araya gətirərək, iqlim dəyişmələrinə qarşı qlobal səviyyədə həll yollarının axtarışını təşviq edəcək. Bakı bu tədbir vasitəsilə bərpaolunan enerji, "yaşıl texnologiya"lar və təmiz enerji istifadəsi sahələrində qazandığı uğurları dünyaya təqdimetmə fürsəti əldə edəcək.




Azərbaycanın bu möhtəşəm tədbirdə təqdim edəcəyi təkliflər ölkənin ekoloji məsuliyyətini və Xəzər dənizinin ekosistemini qorumaq üçün atacağı mühüm addımları əhatə edəcək. COP29 çərçivəsində Azərbaycana verə biləcək potensial nailiyyətlər aşağıdakılardan ibarət olacaq:

**Beynəlxalq iqlim təşəbbüslərinin inkişaf etdirilməsi:** Azərbaycan COP29 konfransına ev sahibliyi etməklə, qlobal iqlim dəyişmələri problemlərinə dair konstruktiv mövqeyini və təşəbbüskarlığını beynəlxalq auditoriyaya nümayiş etdirəcək. **"Yaşıl texnologiya" və təmiz enerji üzrə qlobal mərkəz:** COP29 zamanı Bakı, bərpaolunan enerji və təmiz texnologiyalar sahəsində layihələrini təqdim edərək "yaşıl inkişaf"a töhfə verəcək. Konfrans çərçivəsində Bakının "yaşıl texnologiya" mərkəzinə çevrilməsi üçün geniş imkanlar açılacaq və beynəlxalq investorların diqqəti Azərbaycan layihələrinə yönələcək. **Xəzər dənizinin ekosisteminin qorunması üçün yeni təşəbbüslərin irəli sürülməsi:** Azərbaycan COP29 çərçivəsində Xəzər dənizinin ekosistemini qorumaq məqsədilə genişmiqyaslı ekoloji proqramlar və layihələr irəli sürməyi planlaşdırır. Bu təşəbbüslər rəsmi Bakının ekoloji dayanıqlılığa verdiyi önəmi vurğulamaqla yanaşı, Xəzər dənizinin təmizliyinin qorunması üçün digər ölkələrlə əməkdaşlıq imkanlarını da artıracaq. Azərbaycanın bu cür tədbirlərdə fəal iştirakı həm milli, həm də beynəlxalq səviyyədə ekoloji mövqeyini artıracaq. COP29 Bakının iqlim dəyişmələri ilə mübarizədəki qətiyyətini və ekoloji həllər üzərindəki liderliyini nümayiş etdirərək Azərbaycanın "yaşıl inkişaf" yolunda irəliyə doğru atdığı mühüm addım olacaq.

Paytaxtımız dünya səviyyəsində sülh, əməkdaşlıq və tərəqqi mesajı verən bir mərkəzdir. Bu qədim şəhər tarixi köklərinə sadiq qalmaqla yanaşı, müasir dünyanın tələblərinə uyğun inkişaf edir. Azərbaycanın çoxmədəniyyətlilik və sülh prinsiplərinə əsaslanan yanaşması Bakını beynəlxalq tədbirlərin ev sahibi və mədəniyyətlərin dialoq mərkəzinə çevirir. Dünyanın müxtəlif guşələrindən insanlar bu şəhərdə bir araya gələrək mədəniyyətləri və düşüncələri mübadilə edir, yeni əməkdaşlıq imkanları yaradırlar. Bakı mədəniyyəti, tolerantlığı və qlobal problemlərə məsuliyyətlə yanaşma prinsipini təcəssüm etdirir, keçmişlə gələcəyin, tarixiliklə müasirliyin mükəmməl harmoniyasını yaradır.

Bu qədim yurd həm mədəni irsini, həm də müasir inkişafını tarixi bir əfsanə olaraq yaşadır. COP29 kimi qlobal tədbirlərə ev sahibliyi edən Bakı yalnız Azərbaycanın inkişafı deyil, həm də qlobal miqyasda sülh, ətraf mühitin qorunması və tərəqqiyə olan öhdəliyi nümayiş etdirir.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**